# Unudulmazlar – Şəhid Feyruz Qurbanov

***Şəhid Qardaşımız Qurbanov Feyruz Əlihüseyin oğlu 8 fevral 1968-ci ildə Şabran Rayonu Məliklər kəndində anadan olub. Feyruz Sovet ordusunda xususi təyinatlı dəstədə xidmət edib.1993-cü il aprel ayının əvvəlində Pirəkəşküldə könülülərdən ibarət olan dağ diversiya taboruna cəlb olunub. Aprelin 10-dan sonra 701-ci hərbi hissənin 6-cı Taborunda (simvolik adı "Xilaskar") xidmətini davam etdirib. Elə ilk gündən necə mərd, qorxmaz olduğunu Ömər zirvəsinə posta çıxarkən göstərib.***

Briqada komandiri tərəfindən Ömər aşırımı, Koroğlu yüksəkliyi və Güzgünün azad olması tapşırığıalmışdıq. Feyruz həmin dəstədə diversiya gedən könülülərdən biri olmaqla yanaşı, həm də kiçik dəstələrə başçılıq etməyə tapşırıq alanlardan biri idi. Ömər zirvəsindən aşağı hücuma keçmək heç kimin ağlına belə gəlməzdi. Hər tərəf qar idi. Həm də qarın dərinliyi ən az olan yerlərdə yarım metrdən hündür olurdu. Səhər tezdən alaqanlıqda hücuma keçdik. Başqa Taborlar da bizə yardım edirdilər. Amma yüksəklikdən açıq döyüşə girdiyimizə görə əsas məsuliyyət bizim üzərimizə düşürdü. 3 - 4 saat atışmadan sonra ermənilər səngərləri qoruya bilməyəcəyini görüb, o mövqedən qaçdılar. Həmin döyüşlərdə ermənilər çoxlu itki verdilər. Bizim heç bir itkimiz olmadı. Uğurlu əməliyyatdan sonra hamımız mükafatlandırıldıq.

İki gün sonra ermənilər Ömər zirvəsini geri almaq üçün əks hücuma keçdilər. Ermənilərə məxsus iki BMP, birTank vurulandan sonra onların əks hücumu alınmadı. Gecə ilə Feyruz və qərargah rəisi Rafiq vurulmuş texnikalardan iri çaplı pulemiyotları və digər silahları gətirmək üçün həmin istiqamətə getdilər. Düşmən texnikalara yaxınlaşmaq imkanı vermirdi. Feyruz qayıdanda məlum oldu ki BMP-lərin və Tankın içində rus ordusuna aid sənədlər, rus



əsgərlərinin siyahısı qalıbmış. Bu məsələni araşdırmaq üçün sonradan bir neçə rus zabiti bizim birqadaya gəlmişdi.

Feyruzun cəsarətli olması Tabor komandiri tərəfindən qiymətləndirilirdi. Ona görə də, hər dəfə kəşfiyyata gedəndə Feyruz birinci gedirdi. Ermənilərin Kəlbəcər tərəfdə toplandıqları haqında söz söhbət gəzirdi. Ona görə də dəqiq kəşfiyyat məlumatı lazım idi. Feruz üç günlük kəşfiyyatından sonra dəqiq xəritə ilə məlumatları birqadaya çatdırdı. Artilleriya atəşləri ilə ermənilərin böyük bir bölümü və ehtiyyat silahsursat anbarı dağıdıldı. Artıq ermənilər döyüş mövqeylərinə yaxın heç bir qüvvə saxlamırdılar və silah-sursatlarını aha dərində gizlədirdilər.

Tabor komandiri Vəli Bayramov özü də dəfələrlə kəşfiyyatda iştirak etmişdi. Kəlbəcər əməliyyatları başlamazdan əvvəl "Xilaskar Tabor"un azalması nəzərə alınaraq bölük kimi Beşinci Bərdə Taborunun tərkibinə verilmişdi. Tabor burada da xilaskar bölüyü kimi qəhramanlıqlar göstərmişdi.1993-cü ilin 29 dekabırında Kəlbəcər istiqamətində əməliyyatlar başladi. Əlli günlük bu əməliyyatlarda Feyruz həmişə olduğu kimi yenədə bütün döyüşlərdə öndə gedir, yoldaşlarını həmişə təhlükədən qoruyurdu. Meydançay uğrunda başlayan əməliyyat çox uğurlu olmuşdu. Düşmənin çoxlu canlı qüvəsini məhv edərək Kəlbəcərə girişi təmin eləmişdik. Sonrakı döyüş tapşırığı isə Qızılqaya əməliyyatı idi. Düşmən həmin yüksəkliyi çox ehtibarlı müdafiyə edirdi. Çünki həmin yüksəkliyin alınması Kəlbəcər - Murov yolu tam bizim nəzarətmizə keçirdi. Bölüklərin öndən, Feyruzla on nəfərlə arxadan hücuma keçməsiylə düşmən çox sayda itki verərək Qızılqayadan qaçdı. Həmin döyüşdə şəhidlərimiz və yaralılarmız oldu.

***Növbəti əməliyyatımız Buzluq, Bağırlı və Bağırsaq kəndlərində oldu. Bizə verilən kəşfiyyat məlumatına görə orda düşmən az qüvvə ilə səngər qurmuşdu. Əməliyyat başlayanda həm köhnə Tabor komandiri Vəli Bayramov, həm də Feyruz dedi ki, kənddə kəşfiyyat zamanı bu qədər izlər olmamışdı, ehtiyyatlı olun. Kəndə yaxınlaşmağa az qalmış hiss etdik ki, düşmən bizə tələ hazırlayıb. Döyüşçülərin çevikliyi nəticəsində hamı müdafiyə mövqeyi qurdu. Ağır döyüş oldu. İgidlərmizdən altı nəfər yaralandı, üç nəfər qəhrəmancasına şəhid oldu. Hiss olunurdu ki, düşmən də ağır itki verib. Həm onların bağıra-bağıra danışmaqları, həm də stress altında pərəmpərəm düşmələri nəticəsində mühasirədən çıxa bildik. Mühasirəyə düşməymizə baxmayaraq bir erməni dığasının çaşqınlıqdan istiqamətini dəyişdiyini gördük. Feyruz onu izləyərək əsir götürdü. Briqadaya təhvil verdi. Feyruz ona verilən pul mükafatını döyüşçü yoldaşları arasında böldü. Bu da onun böyük ürəkli insan olduğundan xəbər verirdi. Keçdiyi əlli günlük Kəlbəcər döyüşlərində otuzdan çox düşmən əsgərini məhv etmişdi. Bu döyüşlərdə yüksək qəhramanlıq göstərdiyinə görə ona leytenant rütbəsi verilərək, motoatıcı Tağıma komandir təyin olmuşdur.***

Feyruz 21 aprel 1994-cü ildə Fizuli rayonu Aşağı Əbdülrəhmanlı kəndi uğrunda gedən döyüşlərdəbaşından aldığı ağır güllə yarası alaraq Şəhid olmuşdur. Allah rəhmət eləsin. Dəfələrlə Feyruzun adına təqdimatlar yazılmağına baxmayaraq ona heç bir orden, medal verilməmiş, adna heçnə adlandırılmamışdır. Məzarı Şabran şəhəri Məliklər kəndindədir. Qəbri Tabor komandiri Vəli Bayramovun həyat yoldaşı tərəfindən götürülmüşdür.

Tabor komandiri Gəray Əsədovun yazdıqlarından: Napoleon Marşal Neyi cəsurların ən cəsuruadlandırmışdır. Feyruz qardaşımız doğurdanda cəsurların ən cəsuru idi.

***Palkovnik Leytenant İbrahim Mənsimoğlunun yazır: Feyruzun adı bizim qan yaddaşmıza milli qəhrəman kimiyazılmışdır. Adi döyüşçü deyildi. Şükürlər olsun ki, indi onun ruhu şaddır.***

***Tağım komandiri Leytenant Cümşüdov Fizuli: Feyruz "Xilaskar Tabor"um fəxri, vuran ürəyi, görən gözü,mərdlik, cəsarət simvolu idi. Çox üzücüdür ki, bu günə qədər igid qardaşım heçbir mükafata layiq görülməmişdir. Ancaq mən inanıram ki, gələcəkdə Şabran şəhərində və Feyruzun anadan olduğu kənddə onun adına küçə, məktəb verilməsi və dövlət tərəfindən orden-medalla təltif olunması təmin olacaq.***

***Allah bütün şəhidlərimizə rəhmət eləsin!***

**Feyruz Qurbanovun döyüş yoldaşları**

bilməyəcək. Belə nümunələrin

mı?!)

mi gözəl bir şairin dili ilə deyi-